2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 iyul 2024-cü il tarixli 01 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 22 iyul 2024-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fərziyev Güləli Şahüseyn oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair 24 saylı Nizami birinci seçki dairəsi dairə seçki komissiyasının (bundan sonra – dairə seçki komissiyası) 19 iyul 2024-cü il tarixli 12/37 saylı qərarından verdiyi 20 iyul 2024-cü il tarixli 01 saylı şikayətini araşdıraraq **müəyyən etdim:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatda nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

2024-ci il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərdə 24 saylı Nizami birinci seçki dairəsi üzrə G.Ş.Fərziyevin namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş və dairə seçki komissiyasının 08 iyul 2024-cü il tarixli 7/21 saylı qərarı ilə təsdiq edilmişdir.

Namizəd G.Ş.Fərziyev tərəfindən namizədliyin qeydə alınması üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri 13 iyul 2024-cü il tarixdə dairə seçki komissiyasına təqdim edilmişdir.

Dairə seçki komissiyasının üzvləri tərəfindən 15 iyul 2024-cü il tarixdə tərtib edilmiş aktdan müəyyən edilir ki, namizədin qeydə alınması üçün təqdim edilmiş seçki sənədlərində və imza vərəqələrində düzəldilməsi mümkün olan səhvlər və pozuntular aşkarlanmış və onların aradan qaldırılması üçün Seçki Məcəlləsi ilə müəyyən edilmiş müddətdə namizəd G.Ş.Fərziyev məlumatlandırmış, buraxılmış səhvlərin düzəldilməsi ona təklif edilmiş, namizəd isə həmin düzəlişləri etməkdən imtina etmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş G.Ş.Fərziyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin təqdim etdiyi imza vərəqələrində olan 499 seçici imzasından 371 imza dislokasiyadan kənar toplanmışdır. Bundan əlavə, çoxlu sayda digər xarakterli pozuntulara da yol verilmişdir.

İmzaların seçki dairəsinin ərazisindən kənarda toplanması səbəbindən G.Ş.Fərziyevin namizədliyinin qeydə alınması mümkün olmamışdır.

Araşdırma ilə əlaqədar seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək imza vərəqələrində olan məlumatlar təkrar araşdırılmışdır. Namizədin qeydə alınması üçün G.Ş.Fərziyev tərəfindən dairə seçki komissiyasına təqdim edilmiş 499 seçicinin məlumatının olduğu 10 ədəd imza vərəqinin 5-də (səhifə 1-10) olan 249 seçicinin məlumatının araşdırılması nəticəsində müəyyən edilmişdir ki, onlardan 177 seçici imzası seçki dairəsi ərazisindən kənarda toplanmışdır. Yerdə qalan seçici imzaları Seçki Məcəlləsinin 147.1-ci maddəsinin tələbinə əsasən namizədin qeydə alınması üçün kifayət etmədiyindən məlumatların yoxlanılması dayandırılmışdır.

Seçki Məcəlləsinin 56.2-ci və 147.1-ci maddələrinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır.

Qeyd edilənlərə əsasən müəyyən edilir ki, seçki dairəsi ərazisində toplanmış seçici imzalarının sayı namizədliyin qeydə alınması üçün kifayət etmədiyindən G.Ş.Fərziyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarı əsaslı olmuşdur. Ona görə də şikayətin təmin edilməsi üçün hüquqi əsaslar mövcud deyildir.

Beləliklə, müraciət əsassız olduğundan təmin edilməməli, G.Ş.Fərziyevin namizəd kimi qeydə alınmasından imtinaya dair 24 saylı Nizami birinci seçki dairəsi dairə seçki komissiyasının 19 iyul 2024-cü il tarixli 12/37 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 56.2-ci, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fərziyev Güləli Şahüseyn oğlunun 20 iyul 2024-cü il tarixli 01 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 24 saylı Nizami birinci seçki dairəsi dairə seçki komissiyasının 19 iyul 2024-cü il tarixli 12/37 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                Ramiz İbrahimov